# MƏTNLƏ İŞİN TƏŞKİLİNDƏ ƏYANİ VASİTƏLƏRİN ROLU

**Aytən Musayeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: ayten_2018@list.ru

**Rəyçilər:** *ped.ü.elm.dok.* T. İsayeva,
*ped.ü.elm.dok.* D.M. Musayev

***Açar sözlər:*** *təlim metodları, əyanilik, mətn, müstəqil iş, əyani vasitələr*
***Ключевые слова:*** *методы преподавания, наглядность, текст, самостоятельная работа, наглядные средства*
***Key words:*** *training methods, visibility, text, independent work, visual aids*

Təlim prosesində əyani vasitələr xüsusi rol oynayırlar. Şagirdlər tarixi keçmişi bilavasitə qavramaq imkanından məhrumdurlar. Tarixi hadisələr təkrar olunmur. Bu səbəbdən burada tarixi biliklərin mənbəyi qismində müxtəlif əyani vasitələr çıxış edirlər. Əyani vasitələrin köməyi ilə şagirdlərin təsəvvüründə keçmiş dövr hadisələrinin əyani obrazları yaranır. Əyani tədris vasitələri hər bir şagirdin təsəvvüründə tarixi faktları konkretləşdirir və bununla da keçmişin müasirləşməsinin qabağını alırlar. Əyanilik tarixi hadisələrin mahiyyətini açıqlayır, əsas tarixi anlayışları və qanunauyğunluqları formalaşdırır, şagirdlərin onları dərindən qavramasını təmin edir.

Tarix dərsliklərində əyanilikdən geniş şəkildə istifadə olunur. Hər şeydən əvvəl qeyd etmək mütləqdir ki, dərslik, dərs vəsaitləri, tədris planı şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olmalıdır. Dərs prosesində müəllim şagirdlərin əvvəlki dərslərdə qazandıqları bilikləri yoxlamalı, onu möhkəmləndirdikdə sonra yeni materialın tədrisinə başlamalı, məsələyə dair müəyyən edilmiş tapşırıqları verməlidir. Bunlar sorğu → yeni mövzuya keçid → yeni mövzunun şərhi → verilən biliklərin möhkəmləndirilməsi → evə verilən tapşırıqlar ardıcıllığında özünü göstərməlidir. (5, 65)

Tarix təlimində müxtəlif təlim metodlarından istifadə olunur. Təlim metodları dedikdə təlim prosesində müəllim və şagirdlərin müvafiq məqsədlərə doğru istiqamətlənmiş qarşılıqlı fəaliyyət üsulları başa düşülür. Şagirdlərin idraki müstəqillik səviyyəsinə və bilik mənbələrinə görə Azərbaycan tarixinin təlim metodları bir birindən fərqləndirilir. Lakin bütün təlim metodları dərk olunmuş məqsədlərə fəaliyyət sisteminə və gözlənilən müvafiq nəticələrə xidmət edir. (1, 98)

Təlimdə əyanilik dedikdə hər şeydən əvvəl şagirdlərdə anlayış və təsəvvürlərin, hadisə və proseslərin əyani vasitələrlə formalaşdırılması başa düşülür. Tarixin tədrisində əyani təlim metodlarından istifadənin böyük əhəmiyyəti vardır. Qeyd etdiyimiz kimi, tarixi hadisələr təkrar olunmur, şagirdlər keçmiş hadisələri canlı şəkildə görə bilmirlər. Ona görə də müxtəlif əyani vasitələr tarix üzrə bilik mənbəyi kimi çıxış edir. Təcrübə göstərir ki, əyani təlim təkcə şagirdlərin hisslərinə deyil, eyni zamanda təfəkkürünə də güclü təsir göstərir və müxtəlif funksiyaları yerinə yetirir.

Təlim prosesində əyani vasitələrin köməyi ilə şagirdlərdə tarixi keçmişin gözlə görünən obrazları yaradılır. Bundan başqa əyani vasitələr tarix üzrə faktların konkretləşdirilməsinə, şagirdlərin təsəvvüründə keçmişin aydın mənzərəsinin yaradılmasına kömək edir. Məsələn, erməni vəhşilikləri, azərbaycanlıların soyqırımı məsələlərin izah edərkən ayrı-ayrı əyani vəsaitlərə, şəkillərə müraciət olunması şagirdlərin problemlə bağlı təsəvvürlərini xeyli dərinləşdirir. Onlar tarixi fakt və hadisələrin mahiyyətini daha aydın dərk edirlər.

Qabaqcıl tarix müəllimləri ilin sonunda əl ilə düzəldilmiş əyani vəsaitlərin sərgisini təşkil edirlər. Toplanmış əyani vəsait məktəbin tarix kabinəsində saxlanılmalıdır. Tarixi xronologiyanı şagirdlərə əyani öyrətmək üçün əldə hazırlanmış əyani vasitədən istifadə edilməlidir.

Ümumiyyətlə təlimdə əyanilikdən istifadə Yan Amos Komenski tərəfindən irəli sürülmüşdür. O, təlimdə əyaniliyə böyük qiymət vermişdir: "Tədris edilən hər şey dəlillərlə elə əsaslandırılmalıdır ki, nə şübhəyə, nə unutqanlığa heç bir yer qalmasın. Təlimdə əyaniliyin bir əhəmiyyəti də ondan ibarətdir ki, əyanilik şagirdləri müəllimin izahatını diqqətlə dinləməyə vadar edir. Əyani vəsaitin köməyilə öyrənilmiş biliklər hafizədə daha yaxşı yadda saxlanılır. Əyanilik eyni zamanda biliklərin dərinləşdirilməsinə və möhkəmləndirilməsinə kömək edir. Əyanilik emosional təsirin artmasına böyük kömək edir.

Əyanilik təlimdə şagirdlərin fəallıq və müstəqilliyini, təlimin səmərə və keyfiyyətini artırmağın vacib şərtidir. Dərsdə şagirdlərin təfəkkürünə, düşüncə bacarığına əhəmiyyət verməyən müəllimlər materialı şagirdlərə asan "çeynənmiş" şəkildə təqdim edirlər. Şagirdlər isə hər şeyi asan əldə etməyə çalışır, özləri material üzərində kifayət qədər düşünmürlər. Nəticədə təlimin səmərə və keyfiyyəti aşağı düşür.

Əyanilik nəinki uşaq təfəkkürünün xarakterinə, eləcə də, orta yaşlı adamların və böyüklərin də təfəkkürünə uyğundur. əyanilik bu və ya başqa hadisə haqqında daha dərin təsir oyadır və həmin hadisə uzun müddət yadda qalır. Qeyd etdiyimiz kimi əyanilik emosional təsirin artmasına böyük kömək edir. Məsələn, yuxarı sinif şagirdləri və ya ali məktəb tələbələri görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" əsərini bir və ya bir neçə dəfə oxumuşlar. Lakin Nizaminin bu poeması əsasında SSRİ xalq artisti Qara Qarayev tərəfindən yazılmış "Yeddi gözəl" baletinə tamaşa etdikdən sonra və ya həmin poema əsasında çəkilmiş şəkillərə baxdıqdan sonra böyük şairin "Yeddi gözəl" poemasını uzun müddət yadda saxlamaq mümkündür. (8, 5)

Tarix təlimində müxtəlif əyani vasitələrdən istifadə olunur. Tarixçi metodistlər – P. Qora, A. Strajev, N. Andrevskaya, V. Bernadski əyani tədris vasitələrini əsasən 3 qrupa bölürlər.

1. Predmet əyaniliyi
2. Təsviri əyanilik
3. Şərti – qrafik əyanilik

A. Vagin daxili əyaniliyi də qeyd edərək 4 növ göstərir. O, daxili əyanilik dedikdə təlim prosesində şagirdlərin idrakında artıq formalaşmış real əşyaların və ətraf mühit hadisələrinin müşahidəsi ilə qavranılan hazır obrazlara istinadın edilməsini nəzərdə tutur.

1) Predmet əyaniliyi. Xüsusi idraki əhəmiyyətə malikdir. Keçmişin real maddi abidələrinin və onun maddi izlərinin bilavasitə qavranılmasını nəzərdə tutur. əyani tədrisin bu növünə monumental tarixi abidələr aiddir. Bunlara misal olaraq Misir ehramları, Roma su kəmərinin qalıqları, Konstantinopolda müqəddəs Aya Sofiya kilsəsi, Kiyevdəki Sofiya kilsəsini göstərmək olar. Bu cür abidələr dəyişməz şəkildə dövrümüzə nisbətən az sayda gəlib çatmışdır, lakin onlar şagirdlərin əksəriyyəti üçün bilavasitə qavrama obyektləri qismində çıxış edə bilməzlər. Keçmişin maddi abidələrinə əmək alətləri, məişət əşyaları, geyim növləri, zinət əşyala-rı, nəqliyyat vasitələri, silah və digər əşyalar aiddir. Bu əşyalar mərkəzi, yerli, bəzən məktəb muzeylərində nümayiş olunurlar. Məktəblərdə tarix muzeylərinin yaradılması zəruri idraki əhəmiyyət daşımaqla şagirdlərin ideya mənəviyyat və əmək tərbiyəsində böyük rol oynayırlar (4, 270).

2) Təsviri əyanilik. Əyaniliyin bu forması memarlıq abidələrinin, əmək və məişət əşyalarının, bədii kompozisiyaların, elmi baxımdan əsaslandırılmış rekonstruksiyaların istifadəsini nəzərdə tutur. Onlar müxtəlif maketlərdə, modellərdə, eləcə də əsillərinə tam uyğun olaraq hazırlanmış nüsxələrdə təcəssüm olunurlar. Bu sənədli əyani vasitələrə sənədli fotoşəkillər və s. aiddirlər. Təsviri vasitələr tarix təlimində əsas yerlərdən birini tutur. Tərbiyəvi cəhəti bu vasitələrin hazırlanmasında müxtəlif yaş kateqoriyalarına aid şagirdlərin də iştirak edə bilməsidir.

3) Şərti-qrafik əyanilik. Əyaniliyin bu növü şərti işarələr vasitəsi ilə tarixi hadisələrin mahiyyətini, onların qarşılıqlı əlaqəsini və dinamikasını əks etdirir. Əyaniliyin bu növünə xəritələr, sxemlər, qrafiklər, diaqramlar aiddir.

Dərs nümunəsi: VII sinif Ümumi tarix.

- **Mövzu:** Avropa və Amerika xalqlarının mədəniyyəti
- **Standart:**

5.1.1. Avropa və Şərq mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

5.1.3. Mədəniyyətlərin inkişafı ilə bağlı materiallar toplayır.

- **Məqsəd:**

1. Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir.

2. Avropa mədəniyyəti barədə məlumat toplayır.

➢ **İş forması:** qrup işi.

➢ **İş üsulu:** beyin həmləsi, mühazirə, müzakirə.

➢ **Resurslar:** dərslik, marker, iş vərəqləri, xəritə, şəkillər, İKT.

➢ **İnteqrasiya:** Azərbaycan tarixi 5.1.1., Coğrafiya.

**Dərsin gedişi:**

➢ **Motivasiya:** İKT yəni slayd şagirdlərə nümayiş etdirilir. Avropa intibah nümayəndələrinin rəsmləri və onların əsərlərini şagirdlərə göstərilir. Bu şəxsiyyətləri və yaxud da onların əsərlərini görüb görmədikləri, hansısa bir məlumata malik olub olmadıqları soruşulur. Cavablar dinlənildikdən sonra mühazirə mətni izahlı şəkildə oxunaraq əlavə məlumatlar verilir. Burada dövrün ən görkəmli nümayəndələri və böyük əsərlərinə diqqət yetirilir.

➢ ***Tədqiqatın aparılması:*** Tədqiqat aparmaq üçün sinif qruplara bölünür, hər bir qrupa ad verilir və iş vərəqləri paylanılır. Və tədqiqat sualı səsləndirilir.

1-ci qrup: “Da Vinçi”

2-ci qrup: “Mikelancelo”

3-cü qrup “Albrext Dürer”

4-cü qrup: “Rafael Santi”

**Tədqiqat sualı:**Avropa mədəniyyəti dünyaya nələr bəxş edib?

Hər bir qrupa tədqiqat sualı verilir:

“Da Vinçi” qrupu – Leonardo Da Vinçinin Avropa mədəniyyətindəki izini təsvir edin.

“Mikelancelo” qrupu – Avropa memarlığını, heykəltaraşlığının inkişafını izah edin.

“Albrext Dürer” qrupu –Albrext Dürer və Da Vinçi rəssamlığını müqayisə edin.

“Rafael Santi” qrupu – Avropa rəssamlığında Rafael Santinin rolunu izah edin.

➢ **Məlumatın mübadiləsi:** Müəyyən edilmiş zaman kəsiyində şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

➢ **Məlumatın müzakirəsi:** Cavablar diqqətlə dinlənilir. Əgər varsa əlavələr olunur və müzakirə edilir.

➢ **Nəticə və ümumiləşdirmə:** Nəticədə şagirdlər Avropa mədəniyyətinin inkişaf xüsusiyyətlərini izah edir və Avropa mədəniyyəti barədə məlumat toplaya bilirlər.

➢ **Yaradıcı tətbiqetmə və ya ev tapşırığı:** “Avropa mədəniyyəti” haqqında esse yazın.

➢ **Qiymətləndirmə:**

| MEYARLAR QRUPLAR | TƏQDİMETMƏ | VAXTA QƏNAƏT | TAPŞIRIĞIN DÜZGÜN YERİNƏ YETİRİLMƏSİ | ƏMƏKDAŞLIQ | ÜMUMİ NƏTİCƏ |
|---|---|---|---|---|---|
| DA VİNÇİ | | | | | |
| MİKELANCELO | | | | | |
| ALBERXT DÜRER | | | | | |
| RAFAEL SANTİ | | | | | |

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, əyaniliyin tarix dərslərində səmərəli istifadəsinin üsulları müəyyənləşdirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə bəhs edilən əyani təlim vasitələrindən tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

**Məqalənin aktuallığı** ondan ibarətdir ki, dərsliyin əsas hissəsini təşkil edən mətn və onun öyrənilməsi zamanı istifadə olunan əyani vasitələrin tətbiqi, reallaşdırılması şagirdlərin yaş xüsusiyyətlərinə uyğun şəkildə həyata keçirilməlidir.

## ƏDƏBİYYAT

1. Cəbrayılov. İ. H. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı: Mütəcim, 2006.
2. Əliyev. A. Təlim metodları və onlardan istifadə problemi // Azərbaycan məktəbi, 2005, № 2
3. Əmirov. M. M. Ümumtəhsil məktəblərində tarixin fəal\interaktiv təlimi metodikası. Bakı: ADPU-nun mətbəəsi, 2014.
4. İsayeva. T. M. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili. Bakı, 2009.
5. Kərimov. Y.Ş. Təlim metodları. Bakı: RS Poliqraf, 2009.
6. Vagin A. A. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı: Maarif, 1973.
7. Zahidov. Ə. Tarix təlimində əyanilik. Gəncə, 1992.

**А. Мусаева**

## РОЛЬ НАГЛЯДНЫХ СРЕДСТВ ПРИ ОРГАНИЗАЦИИ РАБОТЫ С ТЕКСТОМ

***РЕЗЮМЕ***

В статье определены способы использования наглядности на уроках истории. Автор статьи подчеркивает, что тексты и использование при их изучении наглядных средств, их реализация должна осуществляться в соответствии возрастным особенностям учащихся.

**A. Musaeva**

## THE ROLE OF VISUAL AIDS IN ORGANIZATION OF ÜORK ÜITH TEXT

***SUMMARY***

The article was based on relevance of the topic. Different from the point of view of clarifying the essence of visual aids. Clarity was commenting on the types and content. Training related to the use of visual aids were given a detailed explanation clarified the educational features of visual aids.

**Redaksiyaya daxil olub:** 01.12.2017